Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.8.

# Ermənistanın tarixi də, keçmişi də, dövlətçiliyi də saxtadır



***Ermənistan əsrlər boyu torpaqlarımıza, tarixi, mədəni, dini-mənəvi abidələrimizə və təbiətimizə qarşı vəhşilik törətmiş və işğal altında saxladığı ərazilərimizi yerlə-yeksan etmişdir. Nəhayət, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz faşist xislətli Ermənistan ordusunun işğalına son qoydu. Ötən il sentyabrın 27-də ermənilərin başladığı müharibə tarixi qələbəmizlə başa çatdı. 44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərimiz azad edildi. Hazırda işğaldan azad olunmuş bölgədə yeni geopolitik mənzərə yaranıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanın Əliyeva tez-tez həmin ərazilərdə səfərdə olur, yenidənqurma –bərpa işlərinə şəxsən nəzarət edirlər.Yaxın illərdə Qarabağ bölgəsi əvvəlki illərdən də yaxşı görkəmdə olacaq.***

**Dövlət başçımızın budəfəki səfəri Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə oldu. Digər səfərlərdə olduğu kimi, bu dəfə də yeni tikinti-bərpa işlərinin təməli qoyuldu. Tarix elmləri doktoru, professor Havva Məmmədova ilə söhbətimiz bu barədə oldu. O dedi:**

– Bu tarixi qələbə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin siyasi-diplomatik səylərinin, dövlətçilik təcrübəsinin, xalqına və torpağına bağlılığının, əsgər və zabitlərimizin ruh yüksəkliyinin, xalq-ordu birliyinin məntiqi nəticəsidir. Möhtərəm Prezidentimizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərə hər səfəri tarixi hadisədir . Bu səfərlər həm xalqımız, həm də beynəlxalq ictimaiyyət tərəfindən maraqla izlənilir. Hər səfər zamanı erməni vandalizminin nəticələri dünyaya nümayiş etdirilir. Göründüyü kimi, həmin ərazilərdə daşı-daş üstündə qoymayıblar. Halbuki, həmin yerlər bir vaxtlar həyatın qaynadığı, insanların qurub-yaratdıqları ərazilər idi. Bir qarabağlı kimi, mən bütün bunların şahidi olmuşam. Hazırda həmin şəhərlərdən əsər-əlamət qalmayıb. Erməni işğalçıları öz xislətlərinə uyğun olaraq, bu əraziləri xarabalığa çevirib, şəhər və kəndləri darmadağın ediblər. Ancaq dövlət başçımızın siyasi iradəsi bütün bunların hamısını arxada qoydu. Hazırda işğaldan azad edilmiş ərazilərdə yenidənqurma–abadlıq işləri geniş vüsət alıb. Yaxın illərdə yenidən bu ərazilərdə qaynar həyatın şahidi olacağıq.



**– Qarabağ zəngin yeraltı sərvətləri ilə daim diqqət mərkəzində olub…**

– Əlbəttə, Qarabağın hər qarış torpağı qızıldır. Ümumiyyətlə, Azərbaycan yeraltı və yerüstü təbii sərvətləri ilə olduqca zəngindir. Ümumilikdə, işğal olunmuş torpaqlarda təxminən 160 müxtəlif növ qiymətli metal yatağı var idi. Kəlbəcər, Laçın, Zəngilan, Tərtərdəki qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər təbii yataqlar mövcud idi. Şübhə etmirəm ki, yenə də mövcuddur. Yeraltı ehtiyatlar içərisində qızıl yataqları mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərdə olan faydalı qazıntıların Azərbaycan iqtisadiyyatının inkişafında böyük rolu olacaq. Orada elə yataqlar var ki, onların gələcəkdə istismarı respublikamızın iqtisadiyyatına böyük töhfələr verəcək. Məsələn, Zəngilan rayonundakı Vejnəli qızıl yatağı. Bundan əlavə, Kəlbəcərdəki Zod və Ağdərədəki Qızılbulaq qızıl yataqlarını misal gətirmək olar. Ümumiyyətlə, Qarabağda olan bir çox təbii ehtiyatlar tikinti və digər sahələrdə də istifadəyə yararlıdır.

**– Ermənilər həmin ərazilərin adlarını dəyişərək, min bir fitnə-fəsadla özününküləşdirmək istəyirdilər. Ancaq buna nail ola bilmədilər.**

– Uzun illərdir ki, ermənilər tarixi saxtalaşdırmağa cəhd etsələr də, buna nail ola bilmədilər. Fakt faktlığında qalır. Dövlətimizin başçısı Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı da erməni yalanlarından, saxtakarlıqlarından söhbət açdı. Dedi ki, Ermənistanın tarixi də, keçmişi də, dövlətçiliyi də saxtadır. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, Ermənistan təbliğatı istər işğal, istər müharibə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də, keçmişi də, dövlətçiliyi də, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. İşğal etdikləri Azərbaycan ərazilərində də bu mənzərəni yaratmağa cəhd edirdilər. Lakin çirkin niyyətləri baş tutmadı.

Tarixi faktlar da təsdiqləyir ki, ermənilər Hadruta İrandan XIX əsrdə köçürülüblər. Ölkə başçısı da qeyd etdi ki, o vaxta qədər burada erməni yaşamırdı. Onlar tarixi və bugünkü reallıqları saxtalaşdırmaq istəyirdilər. Ermənistanın mayası sanki yalan və saxtakarlıqdan tutulub. Müharibə dövründə bu ölkənin rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onlar həm öz xalqını, həm də dünya ictimaiyyətini aldatmağa çalışırdılar. Lakin son anda ifşa olundular. Dövlət başçımız Ermənistanın rəsmi orqanlarının yalanlarını xatırladaraq dedi ki, onların Müdafiə Nazirliyindən o qədər yalan, cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdik. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı. Birincisi ona görə ki, onlar hesab edirdilər, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. İkincisi ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi.

Möhtərəm Prezidentimiz bildirdi ki, Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq.

Ölkə başçısı bildirdi ki, bura çox möhtəşəm turizm mərkəzi ola bilər. Füzuli Hava Limanı və Füzulidən Xocavəndə çəkilən dördzolaqlı yol buna əlverişli şərait yaradacaq.

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***